meyarı ilə çözməyə çalışır. Amma burda dəyişən yalnız coğrafiya, zaman və məkan koordinatları ola bilər, ədəbi diskursun predmeti kimi mənalanan bədii-fəlsəfi və əxlaqi yaddaşın dayaqlandığı ərazinin sabitliyi isə heç vaxt pozulmur. Azərbaycan nəsrində gedən proseslərin ümumi mahiyyəti, dünya ədəbiyyatı ilə müvafiq paralellər, bədii-estetik fərqlilikləri müəyyənləşdirmək, bu fərqləri mətnin struktur-semiotik təhlili ilə meydana çıxarmaq - çoxsəslilik burdan doğur. İç-içə gətirilən mətnlər, oxşar problemi qabardan müxtəlif əsərlərin bir araya cəm olub çözülməsi... nəzərlərimizi çox uzaqlara dikilməyə vadar edir. Ülvi qoyduğu böyük suallara ümumədəbiyyat dəyərləri kontekstində cavab tapmağa çalışır, düşüncənin hərəkət-gəzişmə trayektoriyasını - Qərbdən Şərqə aparan, Avropadan Azərbaycana gətirən düşüncənin hüdudlarında gerçəkləşdirir. Bu dixatomiyada bizi məyus edən səbəblər də olur, əlbəttə. Ülvinin böyük kriteriyalarla yanaşdığı mətn anlayışı dünya ədəbiyyatı nümunələri üzrə gəzişib milli ədəbiyyata dönürmü... o zaman məyusluq başlanır. Tənqidçinin yüksək materiyalardan soraq verən zövqü, estetik tələbi qarşısında bizim milli ədəbiyyatın müvazinət saxlaması çətinləşir, inteqrasiya qarşıdurmasına duruş gətirə bilmir. Uzun illər milli statusundan perik düşmüş ədəbiyyatın boşluqları bu kitabın sərgilədiyi mahiyyətdə daha bariz görünür. "Modern türk romanının əsası Tanpınarla atıldı, Yusuf Atılganla qoyuldu, Oğuz Atayla isə heç də dünya ədəbiyyatından geri qalmadığını sübut etdi. Orxan Pamukla isə dünyanı fəth etdi. Pamuk nəsri Recaizade Ekremdən Yaşar Kamalacan türk ədəbiyyatının, eləcə də Servantesdən müasiri olduğumuz dövrə qədər dünya romanının bənzərsiz və rəngarəng sərgisidir..." - bu universal və polifonik ölçüyə tən gələn analoji uyğunluğu tapıb yanaşı qoymaq istəyirsən...

## Və cənnət...

Böyük yazıçıların əsərlərinin ruhsal qatında, onların nəfəslərindən çıxan fırtınanın dalğasında insanın və dünyanın mənəvi naqisliyi əleyhinə üsyan dayanır. Gənc tənqidçi də bəşəriyyətin cənnət axtarıcılığı və ona aparan yolların istiqamətini bura yönəldib doğru ünvanları - dünyanı xilas modellərinin kodlaşdığı mənəvi universumu tanıtmağa çalışır. Adəmin cənnətdən qovulma cəzası, M.V.Yosanın "Cənnət başqa yerdədir" deməsi də onu niyyətindən döndərməkdə acizdir. Ülvi cənnəti başqa yerlərdə yox, elə ədəbiyyatda tapmağa ümid edir. Ona görə bu kitabda cənnət axtarışı simvolika, rəmz yox, konsepsiya səviyyəsində gerçəkləşir. Cənnət burdadır, deyilir. İşığın, diriliyin, mənəvi yüksəlişin olduğu yerlərdə. Və inandırır... İnanmayanlar oxusun bu kitabı. Cənnəti tapmağa ədəbiyyatın nə qədər güclü orbitr olduğuna əmin olmaq üçün ən azı.

"Yerinizi rahatlayın, xanımlar və cənablar. Yolumuz uzundur"...